**Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 14 mart tarixli 891 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası və Beynəlxalq İnkişaf Assosiasiyası arasında İnkişaf Krediti haqqında (ikinci Struktur Dəyişiklikləri Krediti) Saziş"dən**

# ÇIXARIŞ

**Tarix: 13 mart 2002-ci il**

## Maddə 1. Ümumi şərtlər; Anlayışlar

### Bölmə 1.02

Məzmunun ayrı cür tələb etdiyi hallar istisna olunmaqla Ümumi Şərtlərdə müəyyənləşdirilmiş bir neçə termin burada müəyyənləşdirilmiş müvafiq mənaları daşıyır və aşağıdakı əlavə terminlər bu mənaları daşıyır:

(d) «**Hesablama Palatası**» hökumətin gəlirlərinin və xərclərinin auditini aparmaq, hökumət əməliyyatlarının maliyyə cəhətdən düzgünlüyünü və icra vəziyyətini, həmçinin hesabatlarda təqdim olunmuş informasiyanın etibarlılığını qiymətləndirmək üçün cavabdeh olan Borcalanın ali audit qurumunu nəzərdə tutur;

## Əlavə 2

**Bu Sazişin 2.02 (d) bəndində istinad olunmuş tədbirlər**

**(Əlavədən çıxarış)**

4. Borcalan (a) **Hesablama Palatasının** ən azı beş auditorunu təyin etmişdir; (b) qənaətbəxş təşkilati struktur formalaşdırmışdır; (c) funksiyaların məqbul təsvirini və işəgötürmə meyarlarını, habelə əməkdaşların ixtisas dərəcələrini müəyyənləşdirmişdir; (d) **Hesablama Palatasında** müvafiq avadanlığı quraşdırmışdır; (e) 2003-cü maliyyə ili üçün **Hesablama Palatasının** iş planını hazırlamışdır; və (f) **Hesablama Palatasının** 2002-cü maliyyə ili üçün maliyyə planını Parlamentə təqdim etmişdir.

**Heydər ƏLİYEV ,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 14 mart 2002-ci il**
**№ 891**